**UOT 091; 17** **Səh. (62-73)**
**DOİ: https://doi.org/10.59849/2219-7370.2024.31.62**

# FÜZULİNİN FƏLSƏFİ-ETİK VƏ ESTETİK GÖRÜŞLƏRİ
## (şairin ərəbcə qəsidələri əsasında)

**Ruhəngiz Cümşüdlü**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq*
*İnstitutunun elmi işlər üzrə direktor müavini,*
*f.ü.f.d., dosent*
*ruhangiz.cumwudlu@bk.ru*
*https://orcid.org/0000-0001-8926-1044*

## XÜLASƏ

Eşq və gözəllik şairi Füzulinin ərəb qəsidələri onun estetik ideyalarını təcəssüm etdirir. Bu qəsidələrin məzmun və mövzuları daxilində ümumiləşmiş məfhum olan gözəllik lirik-psixoloji və fəlsəfi-etik xarakter daşıyır. O, simvolik şəkildə estetik ideal kimi təqdim olunur. Füzuli gözəlliyin mahiyyətini dərk etməyi insanın mənəvi kamilliyinin başlanğıc nöqtəsi hesab edir, beytlərində hurufizm terminlərindən istifadə edir. Onun qəsidələrində həm fəlsəfi, həm də bədii dəyərə malik olan Hürufi ünsürləri poetik mücərrədlik fəal rol oynayır, Füzulinin gözəllik haqqında düşüncələrinə fəlsəfi dərinlik verir, təsirini artırır.

Füzulinin ərəb qəsidələri ictimai-mənəvi ideyalarla zəngindir. Yaşadığı mühitin mənəvi ziddiyyətlərlə dolu eybəcərliyini, rəzilliyini təsvir edən şair öz əxlaqi düşüncələrini insanlığa səsləməklə ifadə edir. Füzuli insanları iflic vəziyyətinə salan cəmiyyətin reallıqlarına əsaslanaraq bəşər övladına əxlaqi rəğbətdən çəkinməyi öyrədir. İnsanı cəmiyyətin hərəkətverici qüvvəsi hesab edən şair mənəvi təkmilləşməni ictimai dəyişiklik və tərəqqi üçün zəruri hesab edir. Beləliklə, o, nəcib insanlıq və humanizm ideallarını müdafiə edir.

**Açar sözlər:** Füzuli, dibaçə, qəsidə, kamil insan, gözəllik.

# MUHAMMAD FUZULI'S PHILOSOPHICAL-ETHICAL AND AESTHETIC VIEWS
## (Based on the Poet's Arabic Odes)

Ph.D., associate professor **Ruhangiz Jumshudlu**
ANAS Acad. Oriental studies named Z.M. Bunyadov
Deputy Director of the Institute for Scientific Affairs,
ruhangiz.cumwudlu@bk.ru
https://orcid.org/0000-0001-8926-1044

## ABSTRACT

The Arabic odes of Fuzuli, a poet of love and beauty embody his aesthetic ideas. Beauty, a generalized concept within the content and themes of these odes holds a lyrical-psychological and philosophical-ethical nature. It is presented as an aesthetic ideal in a symbolic manner. Fuzuli considers the understanding of the essence of beauty to be the starting point of a person's spiritual perfection, he uses the terms of Horufism in his verses. The Horufi elements in the odes, which possess both phi-

losophical and artistic value, play an active role in poetic abstraction, giving philosophical depth to Fuzuli's thoughts on beauty and enhancing their impact.
Fuzuli’s Arabic odes are rich in social and moral ideas. Describing the ugliness and vileness of his environment, full of spiritual contradictions, the poet expresses his moral thoughts by appealing to humanity. Based on the realities of a society that paralyze people, Fuzuli teaches the human race to avoid moral indulgence. Considering man as the driving force of society, the poet views spiritual improvement as essential for societal change and progress. Thus, he advocates for the ideals of noble humanity and humanism.
**Keywords:** Fuzuli, preface, ode, perfect person, beauty.

## ФИЛОСОФСКО-ЭТИЧЕСКИЕ И ЭСТЕТИЧЕСКИЕ ВЗГЛЯДЫ МУХАММАДА ФИЗУЛИ
### (по мотивам арабских од (касидов) поэта)

**Рухангиз Джумшудли,**
доктор философии по филологии, доцент,
зам.дир. по науч.раб. Института востоковедения НАНА им. З.Буниятова
ruhangiz.cumwudlu@bk.ru
https://orcid.org/0000-0001-8926-1044

### РЕЗЮМЕ

В касидах поэзии Мухаммада Физули отражаются эстетические взгляды поэта. Показано, что в содержании и идее этих касид образ прекрасного, эталон красоты представлен как эстетический идеал. Мухаммад Физули, считающий понимание сущности красоты отправной точкой духовного совершенствования человека, использовал в своих произведениях термины хуруфизма, которые имеют не только философское, но и художественно-философское значение. Таким образом касиды, сыграли активную роль в поэтической абстракции и художественно раскрыли философскую глубину поэта о красоте. В своих касидах Физули, выражает свои общечеловеческие нравственные мысли, апеллируя к человечности, описывает также и уродство своего окружения, показывая духовный контраст. Исходя из реалий общества, парализующих людей, поэт внушает человеческому роду держаться подальше от моральных потворств. Рассматривая человека как движущую силу общества, Физули рассматривает его духовное развитие как изменение и прогресс общества, тем самым декларирует идеи благородного гуманизма.
**Ключевые слова:** Физули, духовный контрас, красота, хуруфизм, гуманизм

Böyük sənətlə, sənətkarla doğma xalqı arasında həmişə ilahi bir ünsiyyət, bağlılıq olur. Xalqla Füzuli arasında əsrlərlə davam edən ünsiyyət, qırılmaz mənəvi əlaqənin milli ruhumuzla, əxlaqi-fəlsəfi, bədii-estetik təfəkkürümüzlə bağlı olduğu təsdiq olunmuş bir faktdır. Böyük şairimizin yaradıcılığında bədii və fəlsəfi təfəkkür çulğalaşmış, vəhdət təşkil etmişdir. Füzulinin bədii kəlamları hikmətlə, müdrikliklə yoğrulmuşdur. Onun «hər sözü bir pəhlivan» (Füzuli, 1958, I c, s. 347) olan şeirləri fəlsəfi fikirlərinin, təfəkkür və dünyagörüşünün gözəl nümunələridir.

Füzuli sözün həqiqi mənasında mütəfəkkir şairdir. Onun üç dildə yazılmış sənət nümunələrindən ən yüksək mənəvi məziyyətlərlə aşılanmış nəcib bir insanın, doğru əməllərə səsləyən kamil bir həyat müəlliminin, dövrünün bütün elmlərinə yiyələnmiş alim və mütəfəkkir sənətkarın surəti boylanır. Dahi şairimiz universal bilik sahibi olmuşdur. Böyük söz ustadının Fars divanının dibaçəsində oxuyuruq:

«Elə ki, uşaqlıq dövründə dünya karxanasına etibar nəzəri ilə baxdım, maarif kəsb etmək gözəlini özümə məşuqə etdim… Mən bütün ülum və fünunu özündə toplamış bir insan olmaq üçün çalışırdım» (Füzuli, 1958, III c, s. 21).

Füzuli filosof şairdir. «Şairliklə alimlik Füzulinin şəxsiyyətində və yaradıcılığında birləşmişdir. Şair, Füzuli poeziyasında alimdir, alim Füzuli də elmi mülahizələrində şairdir» (Əliyev, 1986, s. 5). Mütəfəkkir şair elm və şeirin əlaqəsinə işarə edərək yazmışdır: «Zira ki, elmsiz şeir əsası yox divar olur və əsassız divar qayətdə bietibar olur» (Füzuli, 1958, I c, s. 43). Füzulinin ədəbi deviz kimi alimanə irəli sürdüyü «elmli şer» anlayışı intelektual şeir tələbi kimi başa düşülməlidir. Fars divanın dibaçəsində (girişində) «gah ərəbcə şerlər yazdım və ərəb fəsihlərini müxtəlif ərəb mənzumələrimlə şadlandırdım. Bu, mənim üçün asan oldu, çünki, mənim elmi mübahisə dilim ərəbcə idi» (Füzuli, 1958, III c, s. 18) – yazan şairimizin elə ərəbcə şeirləri də onun elminin müəyyən tərəflərinə işıq salır. Füzuli bəzi elmi-fəlsəfi mübahisələrini bədii şəkildə, obrazlı mühitdə ifadə edərək ərəbcə qəsidələrinin müəyyən qisminə «elm bəzəyi» vurmuşdur. Elmi və bədii sözün vəhdətinin nəticəsi kimi meydana çıxan bu beytlər intelektual şeir nümunələrinə çevirilmişdir. «Elmi biliklərini bədii əsərlərində nümayiş etdirən, hər zaman oxucuya elmin, həyatın müxtəlif sahələrindən məlumat verməyi sənətkarlığın zəruri şərtlərindən sayan» (Araslı, 1958, s. 255) Məhəmməd Füzuli ərəbcə qəsidələrinin birində deyir:

فلولم يكن مربوطة بولاية
بشخص وجود المكنات مفاصل
لردت منا لاعراض كرها جواهر
وفرت عن الارواح رعبا هياكل

(10 q. b. 31-32)

(Bu varlıq aləmi bir insan cisminin oynaqlarına bənzər. Əgər bu mövcudat (Həzrəti Əlinin) vilayətinə bağlı olmasaydı, vahid bir hala gəlməsəydi, onda varlıqlar öz yerində qərar tutmaz, cahan tarmar olardı. Cövhər ərəzdən ikrahla uzaqlaşar, cisim qorxudan ruhdan qaçardı. (Cisimdə ruh qorxudan qalmazdı).

Həzrət Əlinin şəxsiyyətinin mübaliğəli şəkildə mədh olunduğu bu beytlərdə Füzulinin cövhər və ərəz, ruh və cism(vücud) barədə fəlsəfi görüşləri əks olunmuşdur. Cövhər (substansiya) və ərəz (aksidensiya – hadisə və əşyanın mahiyyətini, əsasını təşkil etməyən xassə, sonradan qazanılmış əlamət) məsələsi, onların nisbəti və qarşılıqlı əlaqəsi Füzulinin varlıq haqqında olan fəlsəfi görüşlərində diqqəti cəlb edir. Yuxarıdakı beytdə özünəməxsus poetik ustalıqla cövhərin sabit olduğunu vurğulayan şairin fəlsəfi məntiqinə görə cövhər – əsl mahiyyətdir və o dəyişməzdir. Cövhərin sabitliyini qəbul edən şair «maddə əslini itirmir, yox olmur» ideyasını da təsdiq etmiş olur və bununla da «əsasın möhkəmliyini, atributiv keyfiyyətlərin olduğunu, hər bir şeydə kökün davamlı olması, ikinci dərəcəli xassələrə, sonradan əldə edilmiş və keçici xarakterdə olan sifətlərə nisbətən əsl məğzin müəyyən həddə qədər daimiliyini nəzərdə tutur ki, belə fikir şifahi xalq yaradıcılığında da öz əksini tapmışdır. Məs: ot kökü üstə bitər (F.Qasımzadə, 1968, s. 117). Eyni zamanda, beytdə ruh və onun vücuda nisbəti haqqında da fikir mövcuddur ki, şair «Mətlə ül-etiqad» adlı fəlsəfi traktatında bu məsələyə geniş şərh verərək problemə daha çox psixoloq kimi yanaşmışdır. İnsanın nəfs (ruh) və bədəndən (cism) ibarət olmasını qəbul edən Füzuliyə görə «bədən ruhun surəti, təzahür etdiyi, şəhadət aləmində yetkin xassələri və qüvvələrinin üzə çıxdığı yer olduğuna görə ona(bədənə) möhtacdır və ondan ayrılmazdır». Bir çox ilahiyyatçı və filosof sələfləri kimi Füzuli də ruhun ölümsüzlüyünü, vücudun məhvindən sonra qaldığını təsdiq edir, lakin onu da bildirir ki, vücud ruhsuz yaşaya bilmədiyi kimi, ruh da vücudsuz tam şəkildə ləzzət ala bilməz (Füzuli, 1987, s. 87). Göründüyü kimi, şairin yuxarıda sitat gətirdiyimiz beyti məhz onun bu fəlsəfi görüşlərinin poetik biçimli ifadəsidir. Qeyd etmək yerinə düşər ki, Füzulinin ərəbcə qəsidələrində idrak nəzəriyyəsi ilə bağlı qiymətli qənaətləri vardır və böyük mütəfəkkirin idrak problemi ilə əlaqədar fəlsəfi düşüncələri onun eşq fəlsəfəsi ilə vəhdətdə araşdırılmalıdır.

Fəlsəfi dünyaduyumunun, mənəvi axtarışlarının əsasında mühüm, kosmoqonik, etik

problemlər duran Füzuli poeziyasının çıxış nöqtəsi insan yaşayışının mənası və məqsədidir. İnsanpərvərlik – Füzuli şeirinin ideya məhvəridir. Nəcib insanepərvərlik ideallarının carçısı olan, böyük sələfi Nizami Gəncəvi kimi insanı varlığın tacı bilən və «aləm sədəfində insandan qiymətli gövhər» (Füzuli, V c, 1985, s. 26) tapmadığını yazan Məhəmməd Füzulini insanın cəmiyyətlə münasibətlərinin ahəngdar şəklə salınması, ziddiyyətlər və eybəcərliklərlə dolu ictimai həyatda xoşbəxtliyə hansı yollarla nail olması kimi köklü məsələlər düşündürürdü. Biz şairin ictimai-sosioloji baxışlarından bəhs edərkən onun müxtəlif əxlaqi prinsip və qayələrin toqquşduğu bir cəmiyyətdə yaşadığını qeyd etmişdik. Görünür, bu səbəbdən Füzuli qayəsində insan amilinin durduğu və mütərəqqi fəlsəfi-əxlaqi və didaktik görüşlər təbliğ edən şeirlər yazmağı özünə müqəddəs borc bilirdi. «Cəmiyyətdən narazı, mənəvi üsyanın yalnız tənqid pilləsində olan böyük hümanist düzəlməsi ümidsiz, islahı müşkül, «mütləq eybəcər» bəşəri sifətin mümkünlüyünə inanmamış» (Əliyev, 1986, s. 123) və daxili təkamül, özünütərbiyənin insandakı naqisliklərin mühüm qismini dəf etməyə qadir olduğuna etiqad etmişdir. «Riya əhlinə həm çox etiraz etmək riyadəndir» (Füzuli, I c, 1958, s. 121) – deyən şair öz sənətinin qüvvəsinə, ideyalarının qüdrətinə arxalanaraq bəşərin əxlaqına təsir göstərməyə çalışmışdır. Şairin yaradıcılığında əxlaqi fəlsəfi bir kateqoriya kimi tədqiq edən prof. F.Qasımzadə yazır: «Məhəmməd Füzulinin etik görüşləri silsiləsində diqqət cəlb edən cəhətlərdən biri onun yüksək əxlaqi sifətləri təbliğ etməsidir» (Qasımzadə, 1968, s. 276). Kamil insan tərbiyə etmək – böyük şairin humanist konsepsiyasının əsasını təşkil edir. Bütün əsərlərində olduğu kimi ərəbcə qəsidələrində də bu məsələyə müəyyən qədər yer ayırması Füzulinin insanlıq və mənəvi azadlıq amalı ilə bağlıdır.«Estetik ideyalı surət və məna gözəlliyi olan» ( Sadıqzadə, 1989, s.6). Füzuli insana qarşı olduqca tələbkardır. O, mənəvi-əxlaqi düşkünlüyü «aləm sədəfində ən bahalı gövhər» olan insana yaraşdırmır. Mənəvi saflıq və gözəllik Füzuli üçün əsasdır:

حريص هوى الدنيا تكسر قلبه فما
الكسر الا فى الاضافة واجب
مميز فعل الخير والشر انسب
لنيل العلا ان المميز ناصب

[2 q. b. 16-17]

(Dünya malına və nemətlərinə həris, tamahkar olanın qəlbi qırılır, sınır, bu dünya qarşısında əyilir, lakin qırılma, sınma (kəsrə) yalnız birləşmədə (izafətdə) vacibdir. Xeyirlə şəri bir-birindən fərqləndirən, onların arasında sərhəd qoya bilən kəsə ən uca məqam nəsib olar. Fərqləndirmənin (yəni təmyizin) əlaməti nasibdir (yəni təsirlik haldır)).

Böyük şair bu beytlərdə insan həyatının məqsəd və qayəsini açıqlamışdır desək yanılmarıq. Yüksək əxlaqın meyarını məhz insanın xeyir və şər, yaxşı və pis arasında sərhəd qoya bilməsi ilə müəyyənləşdirən şair bu zaman insanın əqlinə güvənir. Füzulinin möhkəm əqidəsinə görə xeyri seçərək şərdən uzaq olan, gözəllik, nəciblik və yaxşılığın qəlbində, mənəviyyatında kök saldığı insan daim uca məqamda olar. Şair göstərir ki, hərislik, tamahkarlıq insanı insanlıqdan çıxarır; bu kimi heyvani hisslər şəxsin mənən alçalaraq zəlil olmasına gətirib çıxarır. İnsan yalnız belə kor xislətlərə qalib gələrək düzgün seçim etdikdə ən uca məqama – əxlaqi və mənəvi kamilliyin zirvəsinə çatmış olar. Bu incə mətləb Həzrət Əlinin bir beytində belə vurğulanır:

اتم الناس اعرفهم بنفسه اقمعهم لشهوته و حرصه

(Ən kamil adamlar onlardır ki, öz-özlərini tanıyır, öz şəhvət və ehtiraslarını boğa bilirlər).

İnsan həyatına onu mənəvi təkamülə aparan sınaq yolu kimi baxmaq Füzuli şeirinin səciyyəvi xüsusiyyəti kimi təzahür edir.

Şairə görə insanlığın səadətinin yolu bəlalı, ağrılı, əzablı bir yoldur. Bu yol dözüm, müqavimət və mübarizə yoludur, taleyə boyun əymək yox, tale yaratmaq yoludur:

حلت حين ما حلت على المصائب
الى الراى فى حب المصائب صائب
مرادى بلاء فالنجاة عن البلا
عذاب عظيم مؤلم لى صائب

مراتب قدرى فى البلاء جليلة
بقدر بلاء المرء تعلو المراتب
فلا نفع الا تحت درک بلية
فطالب نفع البلية طالب

(2 q. b. 1-4)

(Elə bir dəm, elə bir vaxt yetişib ki, o, mənim müsibətlərimə, möhnətimə səbəbdir. Müsibəti sevən könül həmişə möhnətə düçar olar. Muradım bəladır, müsibət aşiqiyəm. Bu bəladan xilas olmaq, ondan nicat tapmaq mənim üçün ən ağrılı əzab olar.

Bəla, möhnət mənim qədərimdə, taleyimdə vacibdir. İnsanın həyatdakı uca məqamı onun möhnətinin, acısının miqdarı ilə ölçülür. İnsanın çəkdiyi müsibət, əzab hər nə qədərdirsə onun məqamı da o yüksəklikdədir. Bəlanı, əzab-əziyyəti dərk etməyən şəxs xeyir tapmaz. Bəlaya, bədbəxtliyə düçar olmayan şəxs səadətin qədrini bilməz. Yalnız xoşbəxtlik axtaran şəxs həmişə bədbəxtliyə tuş gələr).

Beytlərin ideya-fəlsəfi məzmunundan aydın olur ki, zamanın məhrumiyyətləri, mənəvi böhranları insanın şəxsiyyətini və mənliyini daim imtahana çəkir. Səadətə can atan şəxs həyatın bütün bəla və müsibətlərini yaşayaraq onları öz mənəviyyat süzgəcindən keçirməlidir. İnsanın mənəvi əzəməti məhz onun çəkdiyi acılarla ölçülür. Çünki? yalnız iztirablardan keçib gələn insan onların mahiyyətinə nüfuz etməyə və ümumilikdə həyatın qanunlarını dərk edərək xoşbəxtliyə aparan yolları tapmağa qadirdir. Məhz bu səbəbdən Füzuli «müsibət aşiqidir». Böyük söz ustadı islam fəlsəfəsində «cəbərilik» adlanan (bax: 76) fatalizmdən irəli gələn əqidə və inancla insani iztirabların qanunauyğunluğu və zəruriliyini göstərir, insanları bütün çətinlikləri yüksək mənəvi vüqarla qarşılamağa çağıraraq onlara əxlaqi fəzilətlər aşılayır:

الى المجد ارشاد بكل من النوى
فرحت إذا مالت الى النوائب
اعز جفاء الدهر نيل مقاصدى
حلت بمداراة الرقيب الجبايب
صلاح لفرط الشوق فقد مطالبى
لقلتها تحلو و تعلو المطالب
كف النفوس الانكسار من النوى
لنجم الغرور الحادثات مغارب

(2 q. b. 5-8)

(Həyatda uca məqama çatmaq, şan-şöhrət əldə etmək üçün səy etmək, çətinlikləri dəf etmək lazımdır. Nə qədər çox bəlaya düçar olub, həyatın məhrumiyyətləri ilə üzləşsəm də, heç vaxt pərişan olmuram. Öz məqsədlərimə yetişmək üçün zəmanənin ən ağır cəfalarına dözürəm. Sevgilisinə qovuşmaq istəyən kəs rəqib əzablarına tab gətirməlidir. Səlah, xeyirxahlıq şövqdədir, yalnız hədsiz şövqə malik insan öz məqsədlərinə, muradına yetişə bilər. Məqsədlərinə çatıb muradına yetən insan xoşbəxtliyini tapır və ucalır. Qəlbin səy və cəhdlərdən uzaqlaşaraq onlardan imtina etməsi bədbəxtliklər ucbatından qürur ulduzunun qürubuna bənzər).

Füzuli Qurani-kərimdə صبرجميل - «Səbir etmək gözəldir» (Yusif surəsi, 18) ifadəsində əks olunmuş bu gözəl mənəvi keyfiyyət və əxlaqi fəziləti yuxarıdakı beytlərdə əks etdirmiş və bildirmək istəmişdir ki, fədakarlığı bacaranlar, hər cür çətinliyə, əziyyətə sinə gərə bilən səbirli və iradəli adamlar xoşbəxtliyə qovuşa bilərlər. Bu, Füzuli lirikasında yüksək əxlaqi əhəmiyyət daşıyan güclü motivlərdən biridir.

Füzuli insanın kainatın, cəmiyyətin hərəkətverici qüvvəsi olduğunu qəbul edərək, insanın mənən kamilləşməsini, dəyişməsini cəmiyyətin dəyişməsi, təkamülü kimi dəyərləndirirdi. Bu baxımdan şair üçün insanlararası münasibətlər böyük əhəmiyyətə malik idi. Hər hansı bir şəxsin əxlaqına qiymət verərkən əsas meyar kimi bu şəxsin gördüyü işvə əməlləri – cəmiyyətə, insanlığa etdiyi xidmətləri nəzərə alan şair deyir:

عن اللهو طبعى فطرة متنفر
حلفت بتوفيق الصلاح مؤيدا

(12 q. b. 5)

(Həyatın puç əyləncələrinə təbiətim yaddır. Öz səyimlə xeyirxahlığa yardım edib, xeyir işlər görməyə and içmişəm (söz vermişəm).

Füzuli səmərəsiz keçən ömrü mənasız sayır. Onun etiqadına görə hər bir bəşər xilqəti cəmiyyətə xeyir verib, öz faydalı əməlləri ilə səlaha yardım etməyi insani borc bilməli və bununla da həyatını mənalı etməli, onu zinətləndirməlidir. Bu, insanlığın qayəsi və məqsədi, əxlaqi kamilliyin əsas göstəricisidir. Şairin

farsca qəsidələrindən birində deyilir: Çalış xəlqə xeyir ver, xoş sifətlərlə qazan hörmət Arı bal vermək ilə əldə etmiş şöhrəti, şanı. (Füzuli, 1961, s. 334) Bu nəsihəti ərəbcə qəsidələrində bir daha vurğulayan şair insanlığa belə səslənir:

فما الفقر الا للكرامة　　جالب على الفقر
تعويد النفوس تكرم

(2 q. b. 9)

(Fəqirlərə qarşı kəramətli və səxavətli olmağı öyrən. Kəramət və mərhəmətə ehtiyacı olmayan fəqir yoxdur, ona yardım etməklə sən öz şərəfini göstərmiş olarsan).

Bu beytlər Füzulinin insanların bir-birinə mərhəmətli münasibətdə olduqları bir cəmiyyət arzusundan xəbər verir. Şair sadəlik, nəciblik, xeyirxahlıq kimi yüksək etik prinsipləri önə çəkərək bildirmək istəyir ki, bu kimi fəzilətlərlə həyat sürən insan öz mənəvi kamilliyini təzahür etdirir. Belə yüksək əxlaqa malik insanlar isə cəmiyyətin, bəşəriyyətin mənəvi-əxlaqi zövqünü formalaşdırır. Çünki? fərdləri arasında səmimi insani münasibətlər olan cəmiyyət daxili müvazinətə və mənəvi üstünlüyə malikdir. Belə bir cəmiyyət isə Füzulinin kamil insan tərbiyə etmək üçün aradığı yollardan bəlkə də ən birincisidir.

Məhəmməd Füzulinin ərəbcə qəsidələrində onun estetik görüşləri də yer almışdır və şair estetik kateqoriya olan gözəllik anlayışından yüksək sənətkarlıq və dərin fəlsəfi mühakimələrlə bəhs etmişdir. Qeyd etmək yerinə düşər ki, Füzuli «Mətlə ül-etiqad» əsərində bu anlayışa elmi-fəlsəfi izahat verərək gözəllik və çirkinliyin çıxış nöqtələrini açıqlamışdır (Füzuli, 1987, s. 61). Ərəbcə qəsidələrində isə şair gözəllik kateqoriyasını təsəvvüfün«vəhdəti-vücud» təmayülündən çıxış etməklə şərh edir.

Ümumiyyətlə, «Füzulinin sufi görüşlərində panteizm meyilləri,«vəhdəti-vücud» fəlsəfəsinin təzahürləri görünməkdədir ki, bu cəhət onu Həllac Mənsur, xüsusən Mollayi-Rumi və Mahmud Şəbüstəri kimi mütəsəvviflərə yaxın edir» (Qasımzadə, 1968, s. 78). Ülvi – ideal axtarışları Füzuli sənətinin başlıca predmeti olduğundan, belə bir sənət tipi kimi ona təsəvvüf dünyagörüşünün bir çox əsasları – xüsusilə, vəhdəti-vücud fəlsəfəsi yaxın olmuşdur. Vəhdəti vücud fəlsəfəsinə görə «yeganə bir varlıq varsa, o da görünməz və görünən məqamları özündə birləşdirən Tanrı - Allahdır. Onun mahiyyəti görünməz, sifətləri isə nisbi varlıq kimi görünəndir.

Kamil insan nəzərini hara yönəldirsə güzgüdə olduğu tək Tanrı gözəlliyi ilə qarşılaşacaq, «Onu» görəcəkdir. Kainatdakı bütün nəsnələr – hadisat, əşya və məxluqat Allahın təzahürüdür. İlahi qüvvə – mütləq varlıqdır, öz camalını görmək və göstərmək üçün aləmi yaratmışdır» (Gölpınarlı, 1966, s. 65). Füzuli bu mühakimələrdən çıxış edərək qəsidələrinə müqəddimədə yazır: «Həqiqi sevgili gizlənmək örtüyünü zahir olmaq üzündən atıb imkan aynasında öz gözəlliyini cilvələndirdikdə, hər zərrədə özünü göstərib, bu cilvəni tamaşa etmək üçün hər gözdən bir qapı açmışdır» (Füzuli, IV c, 1961, s. 26). Şair gözəlliyi də Allah simasının aynası – ilahi qüdrətin təzahürü adlandıraraq ərəbcə qəsidələrinin birində deyir:

جنودک ارباب الجمال و حسنهم
مناظر اصحاب النظافة و التقى

(1 q. b. 61)

(İlahi! Camal, gözəllik əhli sənin ordun, əmrə müntəzir əsgərlərindir. Onların hüsnü, gözəlliyi isə müttəqi və pak insanların təzahürü, aşkar olması üçün vasitədir, bu hüsn və gözəllik paklığın və müttəqiliyin göstəricisi, əksidir).Göründüyü kimi, Füzuli Tanrını məhz camal əhlində təzahür etməsini göstərməklə və hüsnün İlahinin qüdrətini əksetdirməsini vurğulamaqla, gözəlliyin ilahi mənşəli – Tanrı məzhəri olması fikrini önə çəkir. Beytin məna qatından gözəllikdə başlıca amilin mahiyyət olması mülahizəsi aşkar olur. Böyük söz ustadı «Rind və Zahid» əsərində yazır: «Gözəllik

Allah sirrinin aynasıdır, Allah axtaranların məqsədə çatmaları üçün yol göstərəndir. Camal Allah nurunun məzhəridir, əbədi feyzin mənşəyidir. Gözəlliyi müvəqqəti hesab etmək cəhalətə dəlalət edir. Çünki, onun həqiqəti aradan getmir və yox olmur. Gözəlin surətindən məqsəd keyfiyyətdir, üzvlərinin tərkibinin nisbəti deyil. Sevgilinin camalından məqsəd həqiqətdir, cüzvlərin tərtibinin uyğunluğu deyil:

Zənn etmə ki, hüsnün nəşəsi su və palçıqdır
Bəlkə həqiqətdir ki, üzdə aşkara çıxıbdır» (Füzuli, V c, 1985, s. 65).

Beləliklə, Füzuli gözəlliyin gözəldə zahir olan həqiqət olduğuna etiqad etdiyindəndir ki, ərəbcə qəsidələrinin birində deyir:

سروری و ذوقی من جمالک صادر علی
کل صنع صانع الحسن قادر
جمالک نور لامع متشعشع
مشاهد ذاک النور لله ذاکر
(9 q. b 1; 3)

(Sevincimin və sənə olan meylimin səbəbi sənin camalındır. Bu hüsnün yaradıcısı qüdrət sahibidir, hər möcüzəyə – hər bir şeyə qadirdir. Sənin camalın bərq vuraraq ətrafı nura qərq edir. Bu nuru görən hər kəs Allah-təalanı zikr edir).

Şair sonrakı beytlərdə daha da irəli gedərək, gözəlliyi həqiqət əhlinə – ilahi həqiqəti axtaranlara məqsədə çatmaları üçün yol göstərən möcüzə adlandırır və bununla da gözəlliyin ifadə etdiyi mahiyyəti açıqlamağa çalışır:

بدیع زمان نور لطف جماله
تحجب فی سر التشعشع و اغتشا
محیر اهل العقل معجز حسنه
لان مع الاظهار فی الاختفا فشا
(7 q. b. 11-12)

(Camalının lətafəti nur kimi ətrafa işıq saçaraq hər tərəfi zinətləndirmişdir. O, gah öz nur pərdəsinə bürünərək bərq vurur, gah da qeyb olur, ətrafı zülmətə qərq edir. Əql əhli onun hüsnünün möcüzəsinə heyran olmuşdur. Çünki, o öz zühuru ilə gizli sirləri faş edir, onların üzərinə aydınlıq bəxş edir).

Füzuli hüsnün nur saçaraq ətrafı işıqlandırması, gizli sirlərə aydınlıq gətirməsi fikrini vurğulamaqla gözəlliyin ilahidən qaynaqlandığını göstərmək istəyir. Görkəmli tənqidçi alim Məmməd Cəfər yazırdı: «Füzulinin görüşlərində real maddi varlıqdan başqa, bir «ülvi aləmdən» feyzlənmək motivləri də olmuşdur» (Cəfərov, 1973, I c, s. 61).

Məhz bu səbəbdən, Füzuli gözəlliyi ali və fövqəladə təsvir etməklə onu müqəddəsləşdirir və bu müqəddəslik, ilahilik qarşısında təzimin, səcdənin vacib olduğunu bildirir:

بدر علا شرفا وطاب به البها
و بحسن نسبته جمال جمیل
نجم سما عزا و مصحف قدر
ما لیس من آیاته التنزیل
فعلی جمیع ذوی البها لجماله
الا علاء و التر جیح والتفضیل
حتم علی النظار عند لقائه
التسبیح و التکبیر و التهلیل
فرض علی الارواح اجلالا له
التعظیم و التکریم و التبجیل
(5 q. b. 10-14)

(Ay ondan şərəflənmiş, gözəlliyini və parlaqlığını ondan almışdır. (Sanki o, öz hüsnündən Aya bəxş etmişdir). Bu hüsn onun camalının gözəlliyidir. O, elə bir ulduzdur ki, şərəfi, izzəti ilə yüksəklikdə bərq vurur. Onun qüdrəti elə Müshəfə bənzəyir ki, göydən onun ayələri hələ nazil olmamış, insanlar üçün gizli, sirli qalmışdır. Bütün gözəllik sərvərləri onun camalını görəndə heyrətə gəlir, onu mədh edib, tərifini göylərə qaldırırlar. Onunla qarşılaşıb çöhrəsinə nəzər salanlar İlahinin bu qüdrətindən vəcdə gəlir, İlahinin şəninə, böyüklüyünə təriflər, mədhlər söyləyir və şükr edirlər. Hətta ruhların hörmət əlaməti olaraq ona ehtiram göstərib, təzim etməsi mütləq vacib (fərz) olmuşdur).

Akademik Y.Bertels bu beytlərin birində (13-cü beytdə)müsəlmanların təsəvvüründə yalnız Allah-təala ilə bağlı olan تسبیح - təsbih, تکبیر - təkbir, تهلیل - təhlil kimi spesifik terminlərin işlədilməsini gözəlliyin ilahiləşdirilməsindən irəli gələn xüsusi hal kimi dəyərləndirmişdir. Bu məqamda qeyd etmək lazımdır ki, Qurani-kərimdə varlıq aləminin gözəllik və ahəngdarlığı (əl-Bəqərə, 29; əs-Saffat, 6; əş-Şəms, 7-8),Tanrının hər şeyi gözəl biçimdə xəlq etməsi (əl-Hicr, 19; əs-

Səcdə, 7-9), öz xilqətinə gözəl surət verməsi və nəhayət bütün maddə, mənəvi dəyərlər və təbii-ictimai qanuna uyğunluqların Tanrının zatından qaynaqlanması və onun sifətlərinin təzahürləri olması (Loğman, 26) xüsusi vurğu-

lanır. Yuxarıda sitat gətirdiyimiz beytlərdən Füzulinin gözəllik haqqında təsəvvürləri çərçivəsində insan gözəlliyinə, xüsusilə insan camalının gözəlliyinə böyük önəm verməsi diqqətimizi xüsusilə cəlb edir. Bu məqam Füzuli nəzərində gözəllik anlayışının daşıdığı mahiyyət və məna tutumunu aydınlaşdırmaq baxımından çox maraqlı və vacibdir. İlk öncə onu qeyd edək ki, təsəvvüfdə insan amili mərkəzi yerlərdən birini tutur. «İnsan mütləq varlığı şəhadət aləmi ilə bağlayan yeganə qüvvə, Tanrının sifətlərini özündə təcəlli etdirən kiçik aləmdir» (Gölpınarlı, 1966, 67). Füzuli də təsəvvüfün vəhdəti-vücud təmayülündən çıxış etməklə bildirir ki, yer üzərində bütün mövcudat və məxluqat uca Tanrının məzhəridirsə, insan İlahi varlığın atributlarından biri sayılırsa, insanın camalının gözəlliyi pərəstişə layiqdir:

أحب ارى وجه المليح لأنه مصلى
على خير البرية و الورى

(1 q. b. 63)

(Mən məlahətli gözəlin camalını görmək istəyirəm, çünki, o yaradılmışların və insanların ən xeyirlisinə dua etmək üçün qibləgah, pərəstiş yeridir).

Qeyd etmək lazımdır ki, insan üzünün gözəlliyinə sitayiş edilməsinin çox maraqlı açıqlaması Türk alimi M.E.Kaanın tədqiqatında öz əksini tapmışdır. M.E.Kaan yazır: «Xarici gözəllik surətin gözəlliyi, daxili gözəllik əxlaqın gözəlliyidir.

İnsanın gözəl surətə meyl etməsinin səbəbi Allahın insanın ruhuna öz ruhundan, nurundan xəlq etməsidir. Ayə: «Ona öz ruhumdan üfürdüm». Gözəl üz ruhundur, bədənin deyildir. Bu, ondan məlumdur ki, ölən adama baxılmaq istənməz, insanda ikrah halı baş qaldırar. Çünki, ona gözəlliyi verən ruhdur» (Kaan, 1961, 35). Bu açıqlamada alimin istinad etdiyi ayə Qurani-kərimin əl-Hicr surəsinin 29-cu ayəsidir.

İnsanın gözəlliyini məhz onun ilahi başlanğıca malik olmasında – ona ilahi ruh nəfəs edilməsində görən Füzuli üçün insanın – Adəm övladının zahiri aləminin də öz təravəti və gözəlliyi ilə seçilməsinin böyük əhəmiyyəti var. İnsan simasında öz gözəllik idealını axtaran şair yuxarıdakı beytdə Tanrının əlamət və keyfiyyətlərinin insan üzündə əks olunduğunu bildirməklə bu gözəlliyi əlçatmaz ənginliklərə qaldırır, müqəddəsləşdirir və eyni zamanda insanın özünü ülviləşdirir. Bizim bu mülahizəmizi isbat edən ən əhəmiyyətli və tutarlı dəlil Füzulinin ərəbcə qəsidələrində insan simasında İlahi təcəllini görüb onu müqəddəsləşdirən Hürufilik təlimi istilahlarının və bu təlimlə bağlı obrazların əks olunmasıdır. Akademik Y.Bertels bu barədə yazırdı ki, «bu qəsidələrdəki obrazlar silsiləsi heyrətamiz dərəcədə hürufilərin məşhur konsepsiyalarına uyğun gəlir» (Бертельс, ,s. 517).

Sufizmlə şiəliyin qovşağında yaranmış bu cərəyanın nümayəndələri bütün sufi təriqətləri kimi öz təlimlərinin isbatını Quranda axtarırdılar (Бертельс, 1965, s. 130). Hərflərin və rəqəmlərin mistik mənasını əsas tutaraq Qurani-kərimin şərhinə can atan hürufilər Müqəddəs Kitabın ayrı-ayrı ayələrinin, bir çox müqəddəs kəlamlarının insan simasında əks olunduğunu bildirirdilər (Ислам. Энциклопедический словарь, 1991, s. 284). İnsan üzündə xətt cizgilərinin, Quran ayələrinin hürufilik təlimində rəmzi mənalar daşıması təsadüfi deyildir. Hürufilərə görə bu əlaqə ilahi bir vəhdətlə bağlıdır (Səfərli, 1991, s. 5). Akademik Y.Bertels Füzulinin ərəbcə qəsidələrində hürufi istilahlarının müşahidə olunması ilə bağlı belə bir qənaətə gəlmişdir ki, «Füzuli hürufi şair deyildir, ehtimal ki, şair bu qəsidələri hürufi təriqətinə mənsub bir şəxsə təqdim etmək üçün yazmış və hürufi istilahlarına müraciət etmişdir» (Бертельс, s. 519). Ə.İnan, Ə.Səidzadə kimi alimlərin marağına səbəb olan bu mülahizəyə haqlı olaraq etiraz edən prof. M.Quluzadə yazırdı: «Füzulinin dünyagörüşündəki panteist motivlərlə və gözəlliyin ilahiləşdirlməsi ilə əlaqədar bu meyllərə çox uyğun gələn hürufi istilahları Füzuli şeirinə Nəsimi və digər mənbələrdən gələ bilər» (Quluzadə, 1965, s. 116). Füzuli yaradıcılığı tədqiqatçılarının əksəriyyəti Nəsiminin – Şərqin digər qüdrətli sənətkarının dahi Füzuliyə olan təsirindən bəhs etmişlər (Bax: Araslı, 1958; Quluzadə, 1965; Şıxıyeva, 1997; Şıxıyeva, 1994). Həqiqətən, Nəsiminin hürufi ideyaları sonrakı

yüzilliklərdə bir çox şairlər tərəfindən mənisənilmiş, şairin şeiri hürufilikdən uzaq olan sənətkarlara belə poetik forma və fəlsəfi ideya baxımından təsir etmişdir. Elə buna görə də, yüksək hümanist mahiyyətli, zəngin hissiyyatla zəngin olan Nəsimi poeziyası əsrlər boyu şairləri öz tilsiminə salan Füzuli kimi nəhəng sənətkarı da sirlər dolu əsrarəngiz aləminə çəkə bilmişdir. Təsadüfi deyildir ki, məşhur Türk alimi Abdulqadir Karahan görkəmli İraq tarixçisi və ədibi Abbas əl-Əzzaviyə istinadən İraqda hürufiliyin yayıldığını, Füzuli və Ruhi Bağdadi kimi şairlərin əsərlərində hürufilik təsirinin müşahidə olunduğunu xüsusi qeyd etmişdir (Karahan, 1989, s. 269). Qeyd edək ki, Xətai irsinin görkəmli tədqiqatçısı Ə.Məmmədov Nəsimi ənənələrinin və hürufi ideyalarının Xətai poeziyasında əksindən bəhs edərkən göstərir ki, «əvvəllər amansız surətdə təqib olunan hürufilik yalnız Səfəvilər dövründə azad nəfəs almağa imkan tapmışdı. Səfəvilər siyasi hakimiyyəti ələ aldıqdan sonra hürufi şairlərimizdən Süruri, Tüfeyli və b. Şah İsmayılın himayəsinə sığınmış, hürufi ideyalarını şiəliklə birləşdirməyə və uyğunlaşdırmağa cəhd etmişlər» (Məmmədov, 1973, s. 185). Füzulinin yaşayıb-yaratdığı İraq torpağının müəyyən zaman kəsiyində Səfəvilərin hakimiyyəti altında olduğunu və bu dövrdə İraq-Azərbaycan ədəbi-mədəni əlaqələrinin öz inkişaf zirvəsinə yüksəldiyini nəzərə alsaq, Füzulinin ərəbcə qəsidələrində müşahidə olunan hürufilik elementlərinin məhz Nəsimi və onun xələflərinin poetik ənənələri ilə bağlı olduğu heç bir şübhə doğurmur.

Füzuli hürufiliyin termin və təsəvvürlərini qeyri-iradi işlətməmişdir. Türk alimi A.Gölpınarlı mövləvi, məlaməti və həmzəvilərin hürufilik təsiri ilə şeir yazmalarını onların bu sahədə öz biliklərini nümayiş etdirmək istəyi kimi dəyərləndirmişdir (Gölpınarlı, s. 159). Bu, Füzuli şeirinə də eynən şamil edilə bilər.

Görünür, insanı ali məqama yüksəldən, ona kamil varlıq kimi baxan hürufiliyin insansevərlik motivləri insan gözəlliyini əlçatmaz ənginliklərdə təsvir edib, onu müqəddəsləşdirən Füzulinin poetik-fəlsəfi ruhuna uyğun olduğu üçün şeirinə yol tapmışdır. Həqiqətən, Nəsimi və Füzuli poeziyasında xeyli ifadə və obraz uyğunluqları var, bunlar formal səsləşmələrdir, lakin hürufiliyin panteist ideyalarının mahiyyətindən doğan terminoloji səciyyəli vahidlərdir. Ancaq əgər Nəsimi hürufiliyə qəlbən tapınıb öz poeziyası ilə bu təlimin ideyalarını təbliğ edirdisə, Füzuli hürufiliyi bədii zövq kimi – şeirinin estetik-bədii zinəti kimi təqdim etmişdir. Füzulinin ərəbcə qəsidələrində

hürufiliyin məcazlaşan termin və anlamları, poetik biçimli obrazları hərf və rəqəm mistikası ilə deyil, üz və cizgiləri ilə əlaqədar olaraq istifadə olunmuşdur ki, bu da bizim mülahizələrimizi bir daha təsdiq edir. Qəsidələrə müraciət edək:

أحببت رب ملاحة لجماله
تجب الصلاة على النبى و آله
الحسن من ايات مصحف
وجهه سبحان من سر القلوب بفاله

(3 q. b. 1-2)

(Mən elə gözəllik və məlahət sərvərinə aşiq olmuşam ki, bu gözəllik üçün peyğəmbər və onun ailəsinə daim dua etmək lazımdır. Bu hüsn onun Müshəfə bənzər çöhrəsindəki ayələrdir. Onun xeyirli nişanəsi ilə qəlbləri sevindirənə həmd olsun).

Füzuli gözəlin camalını Quran səhifəsinə bənzədərək orada Quran ayələrinin yazıldığını söyləməklə, insan simasını Tanrının göydən yerə endirdiyi Quran qədər müqəddəsləşdirir. Qurani-kərimin ayələri ilahi həqiqətləri bəyan etdiyi üçün insan simasına da ilahilik, sirli mahiyyət məxsusdur. Yeri gəlmişkən qeyd edək ki, Füzulinin Türk divanında da belə beytlərə təsadüf etmək mümkündür:

Üzarü ləbin vəsfin eylər Füzuli
Ona həm müfəssir derəm, həm mühəddis.
(Füzuli, I c, 1958, s. 96)

Məlumdur ki, Quranın şərhçisinə müfəssir (təfsirçi) deyilir. Füzuli burada özünü məşuqə üzünü vəsf eləyən müfəssir adlandırmaqla, insan üzünü Quran səhifəsinə bənzədir. Və yaxud digər bir beyt:

Nə bilir oxumayan müshəfi - hüsnun şərhin
Yerə gökdən nə üçün endiyinin Quranın.
(Füzuli, I c, 1958, 211)

Bu beytdə də böyük sənətkarın insanın çöhrəsində Quranın yazıldığını söyləməsi hürufilik təsiridir. Füzulinin ərəbcə beytlərində insan simasının epiteti kimi təqdim etdiyi -مصحف فوجهه - üzün müshəfi (səhifəsi) ifadəsi Nəsimi şeirindən eyni ilə götürülərək qəsidələrin bədii materialında yerləşdirilmişdir. Məsələn, Nəsiminin bir qəzəlində deyilir:

Müshəfi-hüsnün həqiçün, ey dilaramım mənim
Ancaq kim, bu təndə canım var, səndən dönməzəm.
(Nəsimi, 1985, s. 147)

Füzuli insan simasına sirli bir mahiyyət verməyə çalışaraq digər ərəbcə beytlərində söyləyir:

ختم الكلام بان خط عذاره
مصحف و نور جماله جبريل

(5 q. b. 15)

(Sözlər xətm edir ki, Müshəf (Quran) onun çöhrəsinin xətlərində, cizgilərində əks olunub, üzünün nuru isə Cəbraildir).

Və ya:

هواک نعيم فى البقاء مخلد
وجاحد ايات الملاحة كافر
لحسنک من خط العذار تزايد
اشد شعاعا فى الظلام النوائر

(9 q. b. 5-6)

(Sənin məhəbbətin cənnət səadətidir, o, bəqada əbədilik qazanmışdır. Bu məlahət ayələrini inkar edən isə kafirdir. Çöhrənin xətt və cizgiləri sənin gözəlliyini daha da artırır, çünki nur mənbəyi zülmətdə daha parlaq işıq saçır).

Böyük sənətkar insanın üzündəki xətt cizgilərinin Quran ayələrini əks etdirərək rəmzi məna daşımasına işarə edərək, hürufiliyin خطالعذار - «üz (yanaq) xətti» kimi terminləşən məcazlarından birini işlətsə də, beytlərdə bu bədii obrazın hürufilik təlimi mövqeyindən ehtiva etdiyi fəlsəfi məzmun bütünqatları ilə üzə çıxarılmır. Nəsimi şeirinin kontekstində hürufiliyin bu anlamına diqqət yetirək:

Şəha, çün surətin Fürqanimizdir
Ol on dörd xətt bizim Quranimizdir.
(Nəsimi, I c, 1973, s. 112)

Hürufilik təliminə görə insanın üzündə 1 saç, 2 qaş, 4 cərgə kirpik olmaqla 7 tük cizgisi var. İnsanların bu xətt cizgiləri anadan gəlmədir. Bu cizgilərin özü və yerinin sayı 14-ə bərabərdir. 14 rəqəmi isə Qurani-kərimin nazil olduğu ərəb əlifbasındakı hərflərin sayının – yəni 28-in yarısıdır. Nəsimi də«ol on dörd xət bizim Quranimizdir» deməklə insanın üz cizgilərində Qurani-kərimin əks olunmasını bildirir. Bununla da şair insan simasını müqəddəsləşdirməklə, insanın öz-özlüyündə ilahi varlığı və onun sirlərini əks etdirməsini bəyan edir. Göründüyü kimi, Füzulinin ərəbcə qəsidələrində hürufiliyin anlam və məcazları fəlsəfi fikir yükünü tam qoruyub saxlaya bilməmişdir. Sırf fəlsəfi deyil, fəlsəfi-bədii dəyər kəsb edən bu obrazlılıq bədii materialı bəzəmək – Füzulinin ilahiləşdirərək fövqəladə məqamda vəsf etdiyi gözəllik haqqında fikirlərinə bir sirlilik, fəlsəfi dərinlik vermək məqsədilə şeirə gətirilmişdir. Füzulinin meyl etdiyi, onun bədii ilhamının qaynaqlarından biri olan hürufilik poetik abstraklaşdırmada iştirak edərək, şairin beytlərinin təsir qüdrətini daha da artırmışdır. Füzulinin gözəllik haqqında mülahizələrinə vəhdəti-vücud fəlsəfəsindən irəli gələn güclü humanist ruh hakimdir. Gözəlliyi ali məqamda təqdim edən böyük mütəfəkkir bu gözəlliyin daşıyıcısı insanı da ülviləşdirir, ucaldır. Öz sələfi Nəsimi kimi insanı gözəllik və kamillik mücəssəməsi hesab edən Füzuli insanda İlahi qüdrətinin təzahür etdiyini dönə-dönə böyük sevgi ilə tərənnüm edir. Şairin nəzərində insan məhz öz gözəlliyi – həm cismani, həm də mənəvi gözəlliyi ilə ucalıqda, ülvi məqamdadır. Çünki, o, məhz bu gözəlliyi ilə kainatı ehtiva edir,«əl-aləm əs-sağır» – kiçik dünya kimi «əl-aləm əl-kəbir»i –böyük dünyanı öz varlığında əks etdirir. Füzulinin gözəllikdə axtardığı mahiyyət budur! Böyük mütəfəkkirin bu düşüncələri Hz.Əlinin «xilqətin ən kamil nüsxəsi» (Tin surəsi, 3) insana verdiyi böyük dəyərlə eynilik təşkil edir:

دو اؤک فيک و ما تشعر
وداؤک منک و ما تبصر
أتزعم أنک جرم صغير
وفيک انطوى العالم الأکبر
وأنت الکتاب المبين
الذى بأ حرفه يظهر المضمر

فلا حاجة لک فی خارج
یخبر عنک بما سطر

(Sənin dərmanın səndədir, hiss etmirsən. Sənin xəstəliyin də özündədir, onu görmürsən. Sən özünü kiçik bir cism hesab edirsən. Halbuki, bu dünya səndə yerləşib. Sən elə bir kitab sanki, onun hərfləri ilə ürəkdəki aşkara çıxır. Sənin başqa şeyə ehtiyacın yoxdur. Səndə yazılı olan şey səndən xəbər verir).

Beləliklə, Füzulinin ərəbcə qəsidələrində gözəllik ümumiləşdirilmiş anlayış olub, lirik-psixoloji, fəlsəfi-etik xarakter kəsb edərək, qəsidələrin məzmun və ideasında rəmzi şəkildə meydana çıxır və estetik ideala çevrilir. Füzulinin fəlsəfi təfəkkürünü əks etdirən bütün bu nümunələrdən belə bir nəticə hasil olur ki, şairin həyatla poetik dialoqu istər insan qəlbinin iztirabları arxasında, istər fəlsəfi düşüncələr zəminində olsun, həmişə insana və insanlığa olan məhəbbətin ali qüdrətinə istinad edir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Araslı, H. (1958). *Böyük Azərbaycan şairi Füzuli*. Bakı: Maarif.
2. Cəfərov, M. C. (1973) *Seçilmiş əsərləri: 2 cilddə, I c.,* Bakı.
3. Əliyev, S. (1986) *Füzulinin poetikası*. Bakı: Yazıçı.
4. Füzuli, M. (1958) *Əsərləri: 5 cilddə, I c*., Bakı: Azərbaycan SSR EA Nəşriyyatı.
5. Füzuli, M. (1958) *Əsərləri: 5 cilddə, III c.,* Bakı: Azərbaycan SSR EA Nəşriyyatı.
6. Füzuli, M. (1961) *Əsərləri: 5 cilddə, IV c.,* Bakı: Azərbaycan SSREA Nəşriyyatı.
7. Füzuli, M. (1985) *Əsərləri: 5 cilddə, V c.,* Bakı: Elm.
8. Füzuli, M. (1987) *Mətlə' əl-etiqad (Ərəbcədən tərcümə, ön söz, qeyd və şərhlərin müəllifi akad. Z. Bünyadov)*. Bakı: Yazıçı.
9. Gəncəvi, N. (1983) *Xosrov və Şirin*. Bakı: Yazıçı.
10. Nəsimi, İ. (1973) *Əsərləri: 2 cilddə, I c*., Bakı: Elm.
11. Nəsimi, İ. (1985) *Seçilmiş əsərləri*. Bakı: Maarif.
12. Qasımzadə, F. (1968) *Qəm karvanı yaxud zülmətdə nur*. Bakı.
13. Quluzadə, M. (1965) *Füzulinin lirikası*. Bakı: Azərbaycan SSR EA Nəşriyyatı.
14. Məmmədov, Ə. (1973) *Nəsimi və Şah İsmayıl Xətai / Nəsimi. Məqalələr məcmuəsi*. Bakı: Elm, s. 184-192.
15. Məmmədov, Z. (1994) *Azərbaycan fəlsəfəsi tarixi*. Bakı: İrşad.
16. Sadıqzadə, F. (1989) *Füzulinin gözəllik idealı (Ön söz). Heyrət, ey but…* Bakı: Gənclik, s. 3-18.
17. Səfərli, Ə. (1991) *Eşq günəşi (Ön söz) / İ. Nəsimi. Mən bu cahanasığmazam...* Bakı: Gənclik, s. 5-22.
18. Şıxıyeva, S. (1997) *Nəsiminin və Füzulinin «Tanrı və eşq» təlimləri/ M. Füzuli – 500. Beynəlxalq Füzuli simpoziumunun materialları*. Bakı, s. 65-73
19. Şıxıyeva, S. (1994) *Sələf və xələflik münasibətləri (Nəsimi və Füzuli)* // «Nizami Gəncəvi» elmi, ədəbi-bədii jurnalı, № 3 (5), s. 70-75.

### Türk dilində

20. Gölpınarlı, A. (1966) *100 soruda tasavvuf*. İstanbul.
21. Gölpınarlı, A. *100 soruda Türkiyede mezhepler ve tarikatler*. İstanbul: Gerçek yayın evi.
22. Kaan, M. E. (1961) *İslam mutasavviflarına göre ruh ve ölümötesi*. İstanbul.
23. Karahan, A. (1989) *Fuzuli. Muhiti, hayatı ve şahsiyeti*. Ankara:Kültür bakanlığı yayınları.

**Rus dilində**

24. Бертельс, Е.Э. *Низами и Фузули*. Москва:Издательство восточной литературы
25. Бертельс, Е.Э. (1965) *Суфизм и суфийская литература*. Москва.
26. *Ислам. Энциклопедический словарь* (1991) / Под ред. Г.Милославского. Москва: Наука.

**Ərəb dilində**

27. زكريا هاشم زكريا. فضل الحضارة الإسلامية والعربية على العالم، مطبعة نهضة، القاهرة، مصر.
28. مطلع الاعتقاد والقصائد العربية للشاعر فضولي، دراسته ومراجعه عبد اللطيف بندراغلو، بغداد، 1994.

**Rəyçi:** **f.ü.f.d., Elnur Mustafayev**

**Göndərilib: 12.06.2024** **Qəbul edilib: 24.06.2024**